# Təhsil müəssisələrinin pedaqoji işçilərinin ~~*(dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər istisna olmaqla)*~~ dərs yükü normalarının müəyyən edilməsi haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.24-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Təhsil müəssisələrinin pedaqoji işçilərinin ~~*(dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər istisna olmaqla)*~~ dərs yükü normaları aşağıdakı kimi müəyyən edilsin:

məktəbəqədər *təhsil* müəssisələrində tərbiyəçilərin həftəlik iş vaxtı - 30 saat;[2]

*bütün tipdən olan ümumtəhsil məktəblərində, gimnaziya və liseylərdə, peşə təhsili müəssisələrində müəllimlərin 1 (bir) stavka dərs yükü – 18 saat (bu zaman həftəlik dərs yükü 2 (iki) stavkanı aşmamalıdır), idman və incəsənət məktəblərində müəllimlərin, məktəbdənkənar təhsil müəssisələrində dərnək rəhbərlərinin həftəlik 1 (bir) stavka dərs yükü - 12 saat (bu zaman həftəlik dərs yükü 3 (üç) stavkanı aşmamalıdır);*[3]

ümumtəhsil məktəblərində, internatlarda, lisey, gimnaziyalar və peşə ~~təhsili~~ məktəblərində tərbiyəçi-müəllimlərin həftəlik iş vaxtı - 24 saat;[4]

ali və orta ixtisas təhsili müəssisələrində professor-müəllim heyətinin və konsertmeysterlərin bir stavka üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla (bu zaman ali təhsil müəssisələrində mühazirə, seminar, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən, orta ixtisas təhsili müəssisələrində nəzəri, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi isə illik dərs yükünün 80 faizindən az olmamalıdır).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 24 noyabr 2010-cu il
№ 215

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 dekabr 2013-cü il tarixli **356** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 08 yanvar 2014-cü il, № 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1646**)
2. 28 avqust 2018-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 avqust 2018-ci il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1812)**
3. 17 oktyabr 2018-ci il tarixli **459** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 21 oktyabr 2018-ci il, № 237, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 2173)**
4. 19 dekabr 2018-ci il tarixli **543** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 22 dekabr 2018-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №12, II kitab, maddə 2739)**
5. 6 sentyabr 2019-cu il tarixli **397** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 10 sentyabr 2019-cu il, № 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1551)**
6. 10 sentyabr 2019-cu il tarixli **404** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 12 sentyabr 2019-cu il, № 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1558**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 avqust 2018-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 avqust 2018-ci il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1812)** ilə qərarın adına və 1-ci hissəsinin birinci abzasına “**işçilərinin**” sözündən sonra “**(dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər istisna olmaqla)**” sözləri əlavə edilmişdir.

19 dekabr 2018-ci il tarixli **543** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 22 dekabr 2018-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №12, II kitab, maddə 2739)** ilə qərarın adında və 1-ci hissəsinin birinci abzasında “**ilk peşə-ixtisas**” sözləri “**peşə**” sözü ilə əvəz edilmişdir.

6 sentyabr 2019-cu il tarixli **397** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 10 sentyabr 2019-cu il, № 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1551)** ilə adından və 1-ci hissəsinin birinci abzasından “**(dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər istisna olmaqla)**” sözləri çıxarılmışdır.

[2] 17 oktyabr 2018-ci il tarixli **459** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 21 oktyabr 2018-ci il, № 237, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 2173)** ilə 1-ci hissənin ikinci abzasında “**tərbiyə**” sözü “**təhsil**” sözü ilə əvəz edilmişdir.

[3] 27 dekabr 2013-cü il tarixli **356** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 08 yanvar 2014-cü il, № 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1646**) ilə 1-ci hissəsinin üçüncü abzasında "**2 (iki)**" rəqəm və sözü "**3 (üç)**" rəqəm və sözü ilə əvəz edilmişdir.

10 sentyabr 2019-cu il tarixli **404** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 sentyabr 2019-cu il, № 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1558**) ilə 1-ci hissənin üçüncü abzasda "**məktəbləri və peşə liseylərində**" sözləri "**təhsili müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

6 sentyabr 2019-cu il tarixli **397** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 10 sentyabr 2019-cu il, № 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1551)** ilə 1-ci hissənin üçüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~bütün tipdən olan ümumtəhsil məktəblərində, gimnaziya və liseylərdə, peşə *təhsili müəssisələrində*, idman və incəsənət məktəblərində müəllimlərin, məktəbdənkənar təhsil müəssisələrində dərnək rəhbərlərinin həftəlik 1 (bir) stavka dərs yükü - 12 saat (bu zaman həftəlik dərs yükü 3 (üç) stavkanı aşmamalıdır);~~

[4] 10 sentyabr 2019-cu il tarixli **404** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 sentyabr 2019-cu il, № 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1558**) ilə 1-ci hissənin dördüncü abzasından "**təhsili**" sözü çıxarılmışdır.